

# TƏLƏBƏ YADDAŞ KİTABÇASI

**Hörmətli tələbəmiz!**

*Siz Azərbaycan Universitetinə (bundan sonra "Universiet" adlanacaq) qəbul olmuş və tələbə kimi qeydiyyata alınmışsınız. Sizi təbrik edir və təhsil müddətində uğurlar arzulayırıq! Bizim məqsədimiz Sizi təhsil aldığınız müddətdə hüquq və vəzifələrinizlə tanış etmək və onları daha ətraflı izah etməklə təhsildə müvəffəqiyyət qazanmağınız üçün maksimum əlverişli şərait yaratmaq və obyektivliyi təmin etməkdir.*

***Siz təhsildə uğur qazanmaq üçün yüksək bilik və bacarıqlara yiyələnməklə yanaşı "Tələbə yaddaş kitabçası"nda göstərilənləri mütləq bilməli və təhsil aldığınız müddətdə Azərbaycan Respublikasının təhsil qanunvericiliyinə və Universitetimizin daxili qaydalarına əməl etməlisiniz!***

## Tələbənin hansı hüquq və vəzifələri var?

*AU-da təhsil alan hər bir tələbənin aşağıdakı hüquqları vardır:*

- Keyfiyyətli təhsil almaq;
- AU-nun əməkdaşlıq etdiyi beynəlxalq proqramlar çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil almaq, tələbə mübadiləsi və təcrübə proqramlarında iştirak edə bilmək;
- AU-nun Tələbə Gənclər Təşkilatının, Tələbə Elmi Cəmiyyətinin və digər universitetdaxili ictimai-sosial fəaliyyətlə məşğul olan klubların işində iştirak edə bilmək;
- Tələbə təhsil aldığı müddət ərzində AU-da ümumi təhsil məqsədləri üçün ayrılmış resurslardan, o cümlədən, kitabxana fondundan, kompyuterlərdən istifadə edə bilmək;

- ❖ Tələbə öz akademik transkriptini AU-dan təhsil aldığı dövrdə istənilən vaxt müvafiq dekanlıqdan əldə edə bilmək;

*Tələbənin vəzifələri aşağıdakılardan ibarətdir:*

- ❖ Təhsil qanunvericiliyinin tələblərinə uyğun olaraq öhdəsinə düşən akademik vəzifələri yerinə yetirmək;
- ❖ Akademik dürüstlük qaydalarina riayət etmək;
- ❖ AU-nun daxili nizam-intizam qaydalarina əməl etmək;
- ❖ Ali təhsil müəssisəsində kredit sisteminin tətbiqi və tədrisin təşkili ilə bağlı və tələbənin fəaliyyətinə aid olan hüquq, vəzifə və öhdəlikləri əks etdirən universitetdaxili qaydalarla tanış olmaq;
- ❖ Fənn üzrə ayrılmış auditoriya saatlarin minimum 75 faizində iştirak etmək;
- ❖ Ödənişli əsaslarla AU-da təhsil alan hər bir tələbə illik təhsil haqqını ildə iki dəfə olmaqla semestr başlayana qədər ödəmək.

**Kredit sistemi ilə tədrisin təşkili nə deməkdir?**

Azərbaycan Respublikasında ali təhsil üzrə tədris Avropa məkanında tədbiq olunan Bolonya sisteminə uyğun olan kredit sistemi üzərində qurulur. Bolonya sisteminin prinsip və tövsiyələri ölkənin müvafiq qanunvericiliyində əks olunur və xüsusilə də kredit sisteminin təşkilində nəzərə alınır.

Bu sistem çərçivəsində kredit sistemi hər bir tələbəyə fərdi yanaşmanı təmin edir və aşağıda verilənlərlə xarakterizə olunur:

- ✓ Tələbə fərdi tədris planının (tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən sənəd) tərtibində iştirak edir (birinci tədris ili istisna olmaqla);
- ✓ Təhsil aldığı müddətdə kredit sistemi ilə bağlı məsələlərdə akademik məsləhətçinin (tyutorun) köməyindən istifadə edir;
- ✓ Tələbənin biliyinin qiymətləndirilməsində çoxballı sistem tətbiq edilir;
- ✓ Təhsil müddətinin tələbənin nailiyyətindən asılı olması;

- ✓ Tədris prosesində tələbələr fənn müəllimləri tərəfindən ***e-mail və ya elektron universitet vasitəsilə*** lazımi dərs vəsaitləri (mühazirə, prezentasiya, əlavə ədəbiyyat və sair) ilə təmin olunur;
- ✓ Tələbələr kredit sisteminin təşkili qaydaları ilə tanış edilir və təhsil müddətində tədris planında nəzərdə tutulmuş kreditin qazanılmasına şərait yaradılır;
- ✓ Tədrisin təşkili müvafiq qurumlar tərəfindən tənzimlənir (tədris hissəsi, qeydiyyat, qiymətləndirmə, monitorinq bölmələri)
- ✓ Tələbə və müəllim mobilliyinin təmin olunur.

## Təhsil krediti nədir?

Təhsil krediti *(bundan sonra "Kredit" adlanacaq)* - fənnin məzmumuna və həcminə uyğun olaraq, onun mənimsənilməsinə ayrılan vaxtın akademik ölçü vahididir. Hər fənnin dərs yükü kreditlə ölçülür. Fənn ancaq uğurla başa çatdıqdan sonra kredit qazanılmış hesab olunur. Tələbənin həftəlik işinin həcmi 1,5 kredit təşkil edir (yay semestri istisna olmaqla).

## Tələbə Universiteti müvəffəqiyyətlə bitirmək üçün nə qədər kredit toplamalıdır?

İxtisasın (ixtisaslaşmanın) təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriatda 4 (dörd) il ərzində 240-300 kredit, magistraturada isə 2 (iki) il müddətində 120 kredit müəyyənləşdirilir. Müəyyən olunmuş kreditin tələbə (magistrant) tərəfindən toplanılması məcburidir.

## Akademik məsləhətçi (tyutor) kimdir?

Kredit sistemi ilə təhsil alan tələbələrə kömək göstərmək məqsədi ilə Universitetdə akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil olunur. Tyutorlar

tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyur, fərdi tədris planlarının tərtibində köməklik edir, tələbələrin tədris prosesində qarşılaşdığı çətinliklərdə öz məsləhət və tövsiyələri ilə yardım göstərir.

Akademik məsləhətçilər (tyutorlar) Universitetdə təhsil alan tələbələrin kuratorlarıdırlar.

**Tələbə biletləri nə vaxt verilir?**

Universitetə yeni qəbul olmuş tələbələrə tələbə biletləri qəbul əmri verildikdən sonra 1 (bir) ay ərzində təqdim olunur.Tələbə biletini yararsız hala salan, eləcə də hər hansı bir digər səbəbdən təkrar almaq istəyən tələbə yenisini əldə etmək üçün mütləq "Tələbələrlə iş şöbəsi"nə müraciət etməlidir. Əgər tələbə öz biletini itiribsə, öncə "Tələbələrlə iş şöbəsinə"nə məlumat verməli, sonra isə qəzetlərdən birində sənədin itirilməsi barəsində elan yerləşdirməlidir. Yeni tələbə bileti verilənə qədər müvafiq dekanlıq tələbəyə Universitetin binasına daxil olmaq üçün sənədi müvəqqəti əvəz edən arayış verməlidir.

**Dərs və imtahan cədvəlini necə əldə etmək olar?**

Dərs cədvəli hər semestrin başlanğıcında qeydiyyat zamanı hazır olur. Hər bir cədvəl semestr ərzində tədris olunacaq fənləri, onların vaxtını, yerini, kredit saatını və müəllimlərin adlarını özündə əks etdirir. Dərs cədvəli və semestr üzrə imtahan cədvəllərini Universitetin elektron sistemindən və ya fakültə üzrə dekanlıqdan əldə etmək lazımdır.

**Seminar və fənn üzrə imtahanlara hazırlaşmaq üçün ədəbiyyat və mühazirə materiallarını haradan əldə edə bilərəm?**

- Universitetin kitabxanası;
- Oxu zalları;

- Müəllim tərəfindən e-universitet sisteminə yüklənən resursdan.

**Kitabxanadan istifadə etmək üçün nə lazımdır?**

AU-nun binasında yerləşən Kitabxanasından istifadə etmək üçün kitabxanaya üzv olmaq tələb olunur. Bunun üçün kitabxanada Universitetin Tələbə biletini təqdim edərək qeydiyyatdan keçmək lazımdır. Eyni zamanda, elektron kitabxanadan istifadə isə sərbəstdir.

**Tədris ilinin müddəti nə qədərdir?**

Tədris ili əyani təhsilalma forması üzrə 40 həftədən ibarətdir. Hər semestr (payız, yaz) 20 həftədən (5 həftə imtahan sessiyası) ibarətdir və hər semestrə 30 kredit müəyyənləşdirilir. Qiyabi təhsilalma forması üzrə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən (o cümlədən, 1 həftə imtahan sessiyası) ibarətdir və hər semestrə 24 kredit müəyyənləşdirilir. Bundan əlavə olaraq yay semestri də təşkil oluna bilər (6 həftəlik).

**Fərdi tədris planı nədir?**

Fərdi tədris planı- tələbənin tədris ili ərzində təhsil alacağı, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən sənəddir. Hər tədris ili üçün tələbələrin fərdi tədris planları hazırlanır. Tələbələrin fərdi tədris planları müəyyən olunmuş forma (Forma 4) üzrə (birinci kurs tələbələri istisna olmaqla) onların iştirakı ilə akademik məsləhətçinin (tyutorun) köməyindən istifadə olunaraq tərtib olunur. Bu zaman Universitet tələbələrə həm fənn, həm də yüksək ixtisaslı müəllimlərin seçilməsində öz təkliflərini verir. Fərdi tədris planları təhsil müəssisəsi tərəfindən müəyyən olunmuş qaydada təsdiq olunur, onların bir nüsxəsi tələbədə, bir nüsxəsi (və ya elektron versiyası) isə akademik məsləhətçilərdə (tyutorlarda) saxlanılır.

Növbəti tədris ili üçün tələbənin fərdi tədris planları tərtib olunarkən buraya ilk

növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilirlər.

**Fərdi tədris planı nə vaxt və kim tərəfindən tərtib olunmalıdır?**

Universitetə yeni qəbul olunan tələbələrə birinci tədris ili üçün akademik məsləhətçilər (tyutorlar) tərəfindən fərdi tədris planı hazırlanır. Tələbə sentyabrın 10-na qədər həmin fərdi tədris planını almalıdır.

Növbəti tədris ilindən etibarən tələbə ixtisas (ixtisaslaşma) üzrə müəyyən olunmuş illik tədris planı əsasında (Forma 3) fənlərin prerekvizitliyi gözlənilməklə fərdi tədris planını hazırlayır, lazımi hallarda akademik məsləhətçi (tyutor) ilə bu barədə məsləhətləşmələr aparır, onu imzalayır, tarix qoyur (yay semestrində iştirak edib etməməsindən asılı olmayaraq) və iyul ayının 5-dən 15-nə qədər fakültəyə təqdim edir. Bu tədris planlarına tələbə növbəti tədris ilinin sentyabrın 10-na qədər öz düzəlişlərini edə bilər. Sonradan fərdi tədris planında dəyişiklik aparılmasına icazə verilmir. Yalnız payız semestrində akademik borcu qalanlar qış tətilinin ilk həftəsində fərdi tədris planlarında müvafiq düzəlişlər edilməsi üçün müraciət edə bilərlər.

**Tələbə bir semestrdə neçə kreditə qədər fənn seçə bilər?**

Tələbəyə hər semestrdə 30 kreditə qədər fənlərin tədrisi müəyyənləşdirilir və hər semestrdə cəmi 10 kreditdən çox olmamaq şərtilə, əlavə fənn və ya fənlər də seçməyə icazə verilir. Bu halda hər əlavə kreditə görə təhsil haqqının ödənilməsi (1 kredit=(təhsil haqqı /60 kredi) x kreditin sayı) müvafiq tələblərə uyğun həyata keçirilir.

**Tədrisə tam cəlb olunma (full-time) nədir?**

**Tədrisə tam cəlb olunma (full-time)** - ixtisasın təhsil proqramı ilə müəyyən olunmuş normativ təhsil müddətinə uyğun, tədris qrafiki Universitet tərəfindən

planlaşdırılan əyani təhsilalma formasının növüdür. Bir semestrə, tədrisə tam cəlb olunan (full-time) tələbəyə 30-a qədər kredit müəyyənləşdirilir (tələbənin prerekvizit fənn və ya fənlərdən akademik borcu qaldığı halda, kreditlərin sayı az ola bilər). Bu tələbələrə əlavə fənn və ya fənlər də seçməyə icazə verilir. Bu halda təhsil haqqının ödənilməsi müvafiq qaydaların tələblərinə uyğun həyata keçirilir. Dövlət sifarişi ilə təhsil alan və bütün təhsil müddətində ayrı-ayrı fənlərdən göstəricisi 81-100 bal arasında olan tələbələrə əlavə ödəniş etmədən, təhsil aldığı ixtisas üzrə əlavə fənn (fənlər) seçməyə icazə verilir. Bütün hallarda bir semestrdə tələbənin götürdüyü kreditlərin sayı ***40-dan çox*** olmamalıdır.

**Tədrisə qismən cəlb olunma (part-time) nədir?**

**Tədrisə qismən cəlb olunma (part time)** - ixtisasın tədris planına uyğun, hər semestrdə iki fəndən az olmamaqla, tədris qrafiki tələbə tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür.
Bir semestrə tədrisə qismən cəlb olunan (part time) tələbəyə 20-yə qədər kredit müəyyənləşdirilir.

**Əgər tələbə bir semestrə 40 kredit götürəcəksə, bu, onun ali təhsil müəssisəsini tezqurtarmağa imkan vercəkdirmi?**

Bəli. Tələbə təhsil müddətində 240 kredit toplamalıdır. Bu səbəbdən tələbə tədris qrafikini düzgün tərtib etdikdə və bütün təhsil müddətində ayrı-ayrı fənlərdən göstəricisi 81-100 bal arasında olduğu halda, təhsil aldığı ixtisas üzrə əlavə fənn (fənlər) seçməyə icazə verilir (semestr üzrə 40 krediti keçməmək şərtilə) və Universiteti 4 ildən tez bitirə bilir.

**Tələbənin biliyi necə qiymətləndirilir?**

Tələbənin semestr üzrə qiymətləndirilməsi 2 hissədən ibarətdir:

**1. Cari qiymətləndirmə -** fənn üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsidir. Buraya davamiyyət, kollokvium, seminar / laboratoriya dərsləri və sərbəst işlərə görə qazanılan ballar daxildir. Beləliklə, cari qiymətləndirməyə tələbənin ***imtahanaqədərki balları*** daxildir.

Cari qiymətləndirmədə balların miqdarı aşağıdakı kimi müəyyənləşdirilir:

- ***10 bal*** - tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyinə görə (bu zaman yuvarlaqlaşdırmaqla davamiyyətin *hər 10%-nə 1 bal* müəyyənləşdirilir);
- ***30 bal*** - tələbənin fənnin tədrisi müddətində fəaliyyətinə (dərslərdə fəal iştirakına, kollokviumlara, laboratoriya, kurs işinin yerinə yetirilməsi və sair);
- ***10 bal*** - sərbəst işlərə görə (tələbənin sərbəst işi - tələbənin tapşırıqları sərbəst və müəllimin rəhbərliyi ilə auditoriyadankənar həyata keçirdiyi müstəqil işidir)

Tədris fəaliyyətləri üzrə həmin balların hesablanması ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Bu zaman kollokviumların nəticələrinə üstünlük verilir.

İmtahanda qazanıla biləcək balların maksimum miqdarı ***50***-dir. Tələbənin imtahandan topladığı balın miqdarı ***17***-dən az olmamalıdır. Əks təqdirdə, tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur və tələbədə həmin fəndən ***akademik borc*** yaranır.

**Fənn üzrə davamiyyətə görə ballar necə müəyyənləşdirilir?**

Dərsdə davamiyyətə görə verilən maksimum bal 10-dur.

Balın miqdarı aşağıdakı kimi müəyyənləşdirilir:

- tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 10 bal verilir;
- semestr ərzində fənnin tədrisinə ayrılan saatların hər buraxılan auditoriya saatlarının tam 10%-nə 1 bal çıxılır.

***Diqqət!*** Fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır.

**Sərbəst iş nədir və necə qiymətləndirilir?**

Ayrı-ayrı fənlər üzrə tələbəyə sərbəst işə görə verilən balın maksimum həddi 10-dur. Tələbənin sərbəst işinin növü və forması (fərdi, komanda, qrup tapşırığı, layihə, prezentasiya və sair) fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir.

Sərbəst işlərin yoxlanılması və qəbulu müəllim tərəfindən dərsdən kənar vaxtda həyata keçirilir və növbəti semestrin əvvəlinə qədər hər bir fənn üzrə müvafiq kafedrada (və ya dekanlıqda) saxlanılır.

**Seminar (məşğələ) və laboratoriya dərslərinin nəticələrinə görə bal necə hesablanır?**

Fənlər üzrə seminar (məşğələ) və laboratoriya dərsləri tələbələr tərəfindən keçirilən nəzəri dərslərin mənimsənilməsini asanlaşdırmaq və praktik məsələlərin həllində vərdiş aşılamaq məqsədini daşıyır. Seminar (məşğələ) və laboratoriya dərslərində tələbənin jurnalda qiyməti (kollokviumlar, frontal sorğular, praktiki məsələnin həlli və sair) olduğu halda ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə ona bal ayrılmır.

**Kollokviumlarda iştirak vacibdirmi?**

Bəli. Semestr ərzində 3 dəfə kollokviumların keçirilməsi məcburidir. Kollokvium müəllimin və fənnin tələblərinə əsasən, yazılı, şifahi, test və s. təşkil edilə bilər. Kollokviumda iştirak etməyən tələbəyə «0» (sıfır) bal yazılır.

**İmtahana görə ballar necə hesablanır və fənlərin yekun qiymətləndirilməsi hansı şəkildə aparılır?**

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Fənlərin semestrdə yekun qiymətləndirilməsi kredit sisteminin tələblərinə

uyğun olaraq 100 ballıq sistem üzrə aparılır. Tələbələrin semestr ərzində toplanmış balın miqdarına görə biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| *-51 baldan aşağı* | «qeyri-kafi» | F |
| *- 51-60 bal* | «qənaətbəxş» | E |
| *-61-70* | «kafi» | D |
| *-71-80* | «yaxşı» | C |
| *-81-90* | «çox yaxşı» | B |
| *-91-100* | «əla» | A |

**Təcrübələrin nəticələrinə görə balların hesablanması necə aparılır?**

Tədris planında nəzərdə tutulmuş təcrübənin nəticələrinə görə balların yarısı təcrübəyə davamiyyət, təcrübə və müəssisə rəhbərlərinin qiymətləndirməsinə görə, digər yarısı isə təcrübə üzrə hesabatın hazırlanması və müvafiq qaydada müdafiəsinə görə verilir.

Təcrübəyə davamiyyətinə görə tələbənin topladığı yekun bal tələbənin təcrübədə iştirak etdiyi saatların miqdarının davamiyyətə ayrılan maksimum bala vurularaq hasilin təcrübəyə ayrılmış saatların miqdarına bölünməklə hesablanır. Buraxılış ilində tələbə tədris ilinin ikinci semestrində Tədris planına uyğun olaraq İstehsalat təcrübəsində iştirak edir. Tələbənin təcrübə dövründəki fəaliyyəti aşağıdakı göstəricilərə əsasən aparılır:

- ❖ yekun hesabata qədər (təcrübə rəhbərinin qiyməti, təcrübədə olduğu müəssisə rəhbərinin qiyməti və davamiyyət balı) - 50 bal,
- ❖ yekun hesabat - 50 bal.

Təcrübə üçün nəzərdə tutulmuş saatların 25 faizindən çoxunda iştirak etməyən tələbənin qiymətləndirilməsi aparılmır və yekun təcrübə qiyməti qeyri-müvəffəq hesab olunur, bu halda tələbə təcrübəni ödənişli əsaslarla yenidən keçməlidir.

**Buraxılış işlərinə görə ballar necə hesablanır?**

Buraxılış işinin yazılması və müdafiəsinə görə tələbənin toplaya biləcəyi balların maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı buraxılış işinin

hazırlanması və tərtibinə, digər yarısı isə Dövlət Attestasiya Komissiyası qarşısında müdafiəsinə görə verilir.

**Yekun buraxılış imtahanına görə ballar necə hesablanır?**

Yekun buraxılış işinə görə tələbənin toplaya biləcəyi balların maksimum miqdarı 100-ə bərabərdir (50 bal müdafiəyə qədər, 50 bal müdafiədən sonra (minimal keçid balı 17)). Bu halda ümumi 67 bal toplayan tələbə dövlət attestasiyasından keçmiş sayılır.

**ÜOMG (GPA) nədir və necə hesablanır?**

Tələbələrin tədris fəaliyyətini fəallaşdırmaq, onlar üçün özünə nəzarət mexanizmini yaratmaq və tədrisdə əldə olunmuş nailiyyətlərini qiymətləndirmək məqsədilə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) tətbiq edilir:

$$ÜOMG = \frac{b_1k_1^*+b_2k_2^*+b_3k_3^*+\ldots+b_nk_n^*}{k_1+k_2+k_3+\ldots k_n}$$

$b_1, b_2, \ldots, b_n$ - tələbənin fənlər üzrə yığdığı ballar

$k_1, k_2, \ldots,. k_n$ - fənlərə tədris planında nəzərdə tutulan müvafiq kreditlər

$k_1^*, k_2^*, \ldots, k_3^*$ - fənlər üzrə qazanılmış kreditlər (əgər tələbə imtahandan müvəffəq qiymət almazsa o, krediti qazanmamış hesab edilir və bu əmsal «0» sıfır olur)

ÜOMG semestrlər üzrə artan istiqamətdə hesablanır (bir semestrin, iki semestrin, üç semestrin və sair)

**İmtahan zamanı tələbələrin davranış qaydaları:**

1. İmtahan zalında nəzarətçinin göstərdiyi sıra və yerdə oturmalıdır.
2. Nəzarətçinin izahını diqqətlə dinləməlidir.

3. Tələbə biletini masa üzərində saxlamalıdır. **(Diqqət! Üzərində tələbə bileti olmayan tələbələr imtahana buraxılmırlar)**
4. İmtahan zamanı nizam-intizam qaydalarına ciddi riayət etməlidir.
5. Auditoriyaya daxil olduqda üzərində olan mobil telefonu (söndürərək) və imtahanda köçürməyə şərait yaradan digər köməkçi vasitələri nəzarətçiyə təhvil verməlidir.
6. İmtahan başlamamışdan əvvəl tələbə nəzarətçi tərəfindən təqdim edilən "İmtahanda iştirak edən tələbələrin siyahısı" vərəqində adını, soyadını, qrup nömrəsini və imtahan verdiyi fənnin adını qeyd etməlidir. Yalnız imtahan bitdikdən sonra həmin siyahıda adının qarşısına imza atmalıdır.
7. İmtahan vərəqində yalnız göy diyircəkli qələmdən istifadə etməlidir.
8. İmtahan başlanandan sonra ilk 15 dəqiqə ərzində zaldan çıxmağa icazə verilmir. Qalan vaxt ərzində imtahanı bitirib, siyahıya imza atıb bir daha zala qayıtmamaq şərti ilə imtahanı yekunlaşdıra bilər.

**Diqqət! İmtahan sessiyası ərzində 1 dəfə Akt alan tələbəyə şifahi xəbərdarlıq edilir, 2-ci dəfə Akt alan tələbəyə yazılı xəbərdarlıq verilir, 3-cü dəfə Akt alan tələbə töhmət alır və artıq 4-cü dəfə Akt alan tələbə növbəti semestrin dərslərindən uzaqlaşdırılır!**

**İmtahan zamanı tələbələrə aşağıdakılar qadağan olunur:**

1. Danışmaq, başqasının cavablarına baxmaq.
2. Köçürmək, köçürməyə şərait yaratmaq, imtahan cavab vərəqlərini dəyişmək, köməkçi vasitələrdən (mobil telefon, dinləyici cihazlar, və digər rabitə yaxud texniki vasitələr, konspekt və ədəbiyyat, məlumat və qeydiyyat kitabçası və sair) istifadə etmək.
3. İmtahan cavab vərəqəsini qatlamaq, əzmək, cırmaq və ya üzərində hər hansı fərqləndirici nişanələr etmək.
4. İmtahan zamanı nəzarətçiyə bilet sualları və onların məzmunu ilə əlaqədar sual vermək.

5. İmtahan vərəqində qara və ya rəngli qələm, karandaş və ağardıcıdan istifadə etmək
6. İmtahan biletini və cavab blanklarını təhvil vermədən imtahandan çıxmaq;
7. Hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
8. İntizamsızlıq göstərmək: zalda gəzişmək, yerini dəyişmək və ya kiminsə köməyindən istifadə etmək, kiməsə kömək etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;

**Diqqət! Göstərilən qaydalara əməl etməyən tələbə imtahandan xaric edilir və onun imtahan nəticələri "0" (sıfır) bal müəyyənləşdirilir. Tələbədən müsadirə olunan qurğular (qulaqcıq, saat və s.) tələbəyə ancaq sessiya bitdikdən sonra geri qaytarılır.**

**Tələbə imtahandan aldığı qiymətdən narazı olduğu halda hara müraciət etməlidir?**

Tələbə imtahandan aldığı qiymətdən narazı olduğu təqdirdə imtahan cavabları elan olunduğu gündən 3 (üç) iş günü ərzində qanunvericiliyə uyğun qaydada yaradılmış "İmtahan Qərərgahı"na müraciət etməlidir.

**Fənni dinləmədən akademik borcu qalan tələbənin neçə fənn üzrə təkrar imtahanvermək hüququ var?**

İmtahana buraxılan, lakin akademik borcu qalan tələbə hər semestrdə fənni dinləmədən ümumilikdə iki fənn üzrə (hər fəndən bir dəfə olmaqla) imtahanda iştirak edə bilər. Tələbə bu imkandan təhsil proqramı ilə müəyyən olunmuş müddət ərzində həmin fənn tədris olunduğu semestrdə (akademik borcu yaranan semestrdə imtahansessiyasından sonra növbəti semestr başlayanadək və ya növbəti semestrlərdən birində imtahan sessiyası zamanı) istifadə edə bilər.

**Təkrar imtahanlar hansı şəkildə təşkil edilir?**

Üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbə həmin fənn üzrə təkrar imtahan (348 saylı "Kredit sistemi ilə tədrisin təşkili Qaydalarının 3.2.14-cü bəndi") üçün ödəniş etmir, digər hallarda isə imtahan üçün ödəniş edilməlidir (ödəniş haqqı həmin fənnin kreditinin 25 faizi həcmində hesablanır.

**Tələbə təkrar imtahandan yenidən kəsilərsə, nə baş verir?**

Akademik borcu yaranmış tələbəyə həmin fəndən (fənlərdən) təkrar imtahan vermək və ya yenidən dinləmək üçün şərait yaradılır. Tələbə həmin fəndə semestr ərzində iştirak edib, cari və aralıq qiymətləndirmələrin normalarını yerinə yetirərək zəruri krediti qazanmalıdır.

**Tələbə hansı halda fəndən təkrar imtahan vermək hüququndan istifadə edə bilməz?**

Fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etmədikdə (Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Kollegiyası tərəfindən idman növləri üzrə təsdiq edilmiş milli yığma komandaların üzvləri olan idmançı-tələbələr istisna olmaqla).

**Yay semestri nə üçün təşkil edilir?**

Yay semestri aşağıdakı məqsədlərlə təşkil olunur:

- akademik borcların ləğv edilməsi (bu zaman dərslərin ən az 50 faizində iştirakı vacibdir);
- fənlərin prerekvizitliyi gözlənilməklə Ümumi fənlər blokuna daxil olan və ali məktəb tərəfindən müəyyən edilmiş seçmə fənlərin kreditlərinin qazanılması;
- müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsi;

- ali məktəbin təklif etdiyi ayrı-ayrı fənlər üzrə digər ali təhsil müəssisəsi tələbələrinə müvafiq kreditlər qazanmasına şəraitin yaradılması.

Yay semestrində iştirak edəcək tələbələrin ərizələrinin qəbulu akademik məsləhətçilər (tyutorlar) tərəfindən ***mayın 1-dən iyulun 2-dək*** aparılır. Yay semestrində maksimum ***10 kredit həcmində*** fənlərin seçimi mümkündür.

**Akademik transkript nədir və onu əldə etmək üçün hansı şöbəyə müraciət etmək lazımdır?**

Akademik transkript-tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri və qiymətləri (rəqəm və hərflərlə) özündə əks etdirən sənəddir. Bu sənədi əldə etmək üçün tələbə Universitetin Tədris şöbəsinə müraciət etməlidir. Tədris şöbəsi ən çoxu 3 iş günü müddətində bu sənədi tələbəyə təqdim edir.

**Prekrekvizit fənlər nədir?**

**Prerekvizit fənlər**- tədrisi ilk növbədə zəruri və ardıcıl olan fənlərdir.

**Tələbə mobilliyi nədir?**

Tələbələr tərəfindən təhsil müəssisəsinin, təhsilalma formasının və ixtisasının dəyişdirilməsi (mobilliyi) aşağıda göstərilən qaydalarla həyata keçirilir (əsas: 21.02.2024-cü il KQ-02 saylı AR ETN-nin Qərarı). Tələbə mobilliyi - tələbənin ölkədaxili və xarici ölkələrin ali təhsil müəssisələrində müvafiq olaraq sərbəst təhsil almaq və akademik fəaliyyət göstərmək hüququdur:

**I. Ölkədaxili:**

- ✓ Tələbələrin təhsil aldıqları müddətdə mobilliyi yay tətili dövründə ali təhsil müəssisələri tərəfindən yalnız 1 (bir) dəfə həyata keçirilir;
- ✓ Təhsil aldığı müddət ərzində təhsil proqramı ilə həmin dövr üçün müəyyən olunmuş kreditlərin ən azı ikidə bir (1/2) hissəsini toplayan tələbələrin mobilliyinə yol verilir.
- ✓ Sonuncu tədris ilində və ya normativ təhsil müddətindən artıq müddətdə təhsil alan tələbələrin mobilliyinə yol verilmir.

- ✓ Müsabiqə yolu ilə qəbul olunmuş subbakalavrların mobilliyinə yol verilmir.
- ✓ Magistratura səviyyəsində təhsil alan tələbələrin ixtisaslarını (ixtisaslaşmasını) dəyişdirməsinə yol verilmir.
- ✓ Magistratura səviyyəsində təhsil alan tələbənin öz ixtisası (ixtisaslaşması) üzrə təhsil müəssisəsini dəyişməsi o şərtlər aparılır ki, həmin tələbənin magistraturaya qəbul imtahanında topladığı bal, dəyişmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas (ixtisaslaşması) üzrə minimal keçid balından (tələbənin magistraturaya qəbul olunduğu il üzrə) çox olsun.

**II. Beynəlxalq:**

Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə ali təhsil müəssisələrinə tam orta təhsil haqqında dövlət sənədi əsasında qəbul olunan tələbələrin mobilliyi zamanı aşağıdakı göstəricilərdən biri nəzərə alınır:

- ✓ Mərkəzləşdirilmiş qəbul imtahanlarında qazandığı nəticələr (bakalavriat səviyyəsi üçün SAT imtahanından yeni şkala üzrə ən azı 1200 bal (riyaziyyat üzrə ən azı 650 bal), YÖS imtahanlarında ən azı 75 faiz, ЕГЭ imtahanlarında 300 bal (hər fənn üzrə minimum 75 bal), AP – 3 və ya 4, İB diplom – 25-35, A-Level – C və ya B, ACT – 27 bal);
- ✓ Tələbənin ali təhsil müəssisəsinə qəbul olunduğu ildə həmin ali təhsil müəssisəsinin “Times Higher Education World University Rankings”, “QS World University Rankings” və “Academic Ranking of World Universities (Shanghai Ranking)” beynəlxalq reytinq qurumlarının tərtib etdiyi sıralamaların ən azı birində ilk 500 pillədə yer alması.

Universitet tələbələrinin (magistrantların) mobillik hüququnu təmin etmək üçün müxtəlif ixtisaslar üzrə beynəlxalq proqramlara qoşulmuşdur. Bu məqsədlə, ÜOMG (GPA) göstəricisi 71 və yuxarı olan (akademik borcu olmayan), xarici dil bilikləri uyğun gələn tələbə və magistrlarımız “Beynəlxalq əlaqələr” şöbəsinə müraciət edərək, Universitetin əməkdaşlıq etdiyi bir sıra Türkiyə və Avropa universitetlərində 1 və ya 2 semestrlik təhsilini davam etdirə bilər.

**Tələbə hansı hallarda Universitetdən xaric edilir?**

- öz arzusu ilə;
- başqa ali təhsil müəssisəsinə köçürüldükdə;
- Universitetin daxili nizam-intizam qaydalarını kobud şəkildə və ya dəfələrlə pozduqda;
- səhhətinə görə (həkim-məsləhət komissiyasının arayışına əsasən);
- növbəti tədris ilində qeydiyyatdan keçməyib semestrin sonuna qədər Universitet ilə əlaqə saxlamadıqda;
- tələbə 3 ay davamlı olaraq dərslərdə iştirak etmədikdə və bu müddətdə ali təhsil müəssisəsi ilə əlaqə saxlamadıqda;
- əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasının təhsil müəssisəsinə əyani təhsilalma formasında qəbulu rəsmiləşdirildiyi tarixdən 90 (doxsan) gün müddətində Azərbaycan Respublikasının ərazisində yaşamaq üçün icazənin verildiyini təsdiq edən sənədin surətini təhsil müəssisəsinə təqdim etmədikdə;

***Qeyd:*** Tələbənin xaric olunması ilə bağlı ərizə **Tələbələrlə iş şöbəsində** tərtib edilir.

**Tələbəyə akademik möhlətin verilməsi hansı hallarda və müddətə verilir?**

- ✓ müddətli həqiqi hərbi xidmətə çağırıldıqda - xidmət müddətinə;
- ✓ ailə vəziyyətinə görə - 2 il müddətinədək;
- ✓ səhhətinə görə - həkim-məsləhət komissiyasının arayışında göstərilən müddətə;
- ✓ sosial məzuniyyətə çıxdıqda - qanunvericiliklə müəyyən olunmuş müddətə;
- ✓ müxtəlif proqramlar əsasında xarici ölkələrə təhsil almağa getdikdə -proqramda göstərilən müddətə;
- ✓ xaricdə öz hesabına təhsil aldıqda – 1 (bir) il müddətinədək.

***Qeyd:*** Tələbənin akademik məzuniyyətə çıxması ilə bağlı ərizə **Tələbələrlə iş şöbəsində** tərtib edilir.

**Universitetdən xaric olunmuş tələbə nə vaxt tələbələr sırasına bərpa oluna bilər?**

Universitetin hər iki səviyyəsində (bakalavr və magistratura) payız semestrində xaric olunan şəxslər növbəti payız semestrində (semestrlərində), yaz semestrində xaric olunan şəxslər isə yalnız növbəti yaz semestrində (semestrlərində) bərpa oluna bilərlər. Bərpa olunma yay və qış tətili dövründə həyata keçirilir.

***Qeyd:*** Tələbənin bərpa olunması ilə bağlı ərizə **Tələbələrlə iş şöbəsində** tərtib edilir.

**Tələbələr tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsinə bərpa olunması, habelə tələbələrin təhsilini müvəqqəti dayandırması üçün hara müraciət etmək olar?**

Bu prosedurlar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin (bundan sonra – TMİS) altsistemi vasitəsilə həyata keçirilir.

**Azərbaycan Universitetinin daxili təqaüd[1] proqramına kimlər düşə bilər?**

***Magistratura səviyyəsi üzrə:***

1. akademik göstəriciləri 91–100 bal olan tələbələrə – 195 manat;
2. akademik göstəriciləri 71–100 bal olan tələbələrə – 160 manat (Bu halda ən azı 1 fəndən akademik göstəricisi 91-100 olmalıdır.);

*[1] Təqaüd almaq hüququnu qazanmış tələbələrə təqaüdlər semestr üzrə (birinci tədris ilinin birinci semestri istisna olmaqla) imtahan sessiyasının nəticələrinə əsasən fənlər üzrə göstəricilərinə görə aşağıdakı kimi müəyyənləşdirilir:*
*2.6.1. fənlər üzrə göstəriciləri 91-100 bal olan tələbələrə "əlaçı" təqaüdü;*
*2.6.2. fənlər üzrə göstəriciləri 71-100 bal olan tələbələrə "həvəsləndirici" təqaüdü. Bu halda ən azı bir fəndən akademik göstəricisi 91-100 olmalıdır;*
*2.6.3. fənlər üzrə göstəriciləri 51-100 bal olan tələbələrə "adi" təqaüd.*
*2.7. Hər bir tədris ili üçün ixtisas üzrə təqaüd almaq hüququ olan tələbələrin siyahısında sıralamada sonuncu yerə bir neçə iddiaçı olduğu halda, birinci tədris ilinin ikinci semestrində ali təhsil müəssisəsinə qəbul imtahanından topladığı bal, sonrakı semestrlərdə isə əvvəlki semestrdəki ÜOMG-si yüksək olan tələbəyə üstünlük verilir.*
*İstinad: https://e-qanun.az/framework/32086*

3. akademik göstəriciləri 51–100 bal olan tələbələrə – 110 manat;

*Bakalavriat səviyyəsi üzrə:*

1. akademik göstəriciləri 91–100 bal olan tələbələrə – 175 manat;
2. akademik göstəriciləri 71–100 bal olan tələbələrə – 145 manat manat (Bu halda ən azı 1 fəndən akademik göstəricisi 91-100 olmalıdır.);
3. akademik göstəriciləri 51–100 bal olan tələbələrə – 100 manat.

**Şəhid Fəxrəddin Qurbanlı adına təqaüd**

"Şəhid Fəxrəddin Qurbanlı adına Təqaüd" Azərbaycan Universiteti tərəfindən 2016-cı ildə təsis olunub. Təqaüd 2016/2017-ci tədris ilindən başlayaraq birinci tədris ilinin birinci semestrində universitetə ən yüksək balla qəbul olmuş tələbəyə verilir. Təqaüdün ümumi məbləği 500 manat təşkil edir.

**Qarşıya çıxan suallarla bağlı tələbə hara və kimə müraciət edə bilər?**

Tələbə onu maraqlandıran suallarla bağlı akademik məsləhətçilərə (tyutorlara) birbaşa, dekanlığa və ya onlayn şəkildə tələbə elektron sistemi vasitəsilə öz səhifəsindən müraciət edə bilər.

**Elektron universitet**

Tələbələr elektron universitet qaydalarına tam riayət etməlidilər. Universitetə qəbul zamanı onlara elektron poçt ünvanı açılır, elektron universitet üçün profil yaradılır və tələbə təhsil aldığı müddətdə bütün təhsil məlumatlarını buradan əldə etmək imkanına malik olur. Təhsil müddəti zamanı tələbə şəxsi hesabını aktiv saxlamalı və müntəzəm yoxlamalıdır.

**Tələbə Təhsil Krediti**

**Ödənişli əsaslarla təhsil alan tələbələr təhsil haqqının ödənişi zamanı Təhsil Tələbə Kredit Fondunun təşkil etdiyi Tələbə kreditindən istifadə etmək imkanı var. Bu kreditdən faydalanmaq üçün Təhsil Tələbə Kredit Fonduna müraciət etməsi lazımdır. Təhsil Tələbə Kreditinin 2 növü:**

1. **Sosial tələbə krediti:**

   Sosial təhsil tələbə kreditindən yalnız sosial həssas təbəqəyə aid ailələrin üzvü olan tələbələr istifadə edə biləcəklər.

   1) **Birinci tədris ilinin ilk semestrindən (yarımildən) sosial TTK-dən istifadə etmək hüququna malikdirlər:**

   - *Ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;*
   - *3-cü dərəcə əlilliyi olanlar.*

   2) **Hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olanlar:**

   - *1-ci və ya 2-ci dərəcə əlilliyi olanlar;*
   - *İşsiz kimi qeydiyyatda olanlar;*
   - *Yaşa görə əmək pensiyası alanlar;*
   - *Yaşa görə sosial müavinət alanlar.*

**2. Standart TTK:**

Sosial kredit almaq hüququ olmayan tələbələr isə təhsillərinin birinci tədris ilinin ilk semestrindən (yarımildən) etibarən standart kredit almaq hüququna malikdirlər:

1) *Birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbə qəbulu imtahanında toplanan ümumi balın Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilən minimal həddindən yuxarı olanlar;*
2) *Digər semestrlər (yarımillər) üçün isə ÜOMG-si 71 bal və yuxarı olanlar (peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı 71 bal və yuxarı olanlar);*
3) *İllik təhsil haqqı xərcinin ən azı 20 faizini ödəyənlər.*

**TTK-nin alınmasına dair digər müddəalar:**

1. Təhsil krediti hər tədris semestri (yarımili) üzrə yalnız bir dəfə və təhsilin

normativ müddətində verilir.

2. TTK almaq hüququnu müəyyənləşdirən halların müraciətin qeydiyyata alındığı tarixdən sonra dəyişməsi həmin semestr üçün verilmiş kredit şərtlərini dəyişdirmir.
3. TTK üçün girov və zaminlik tələb olunmur.
4. Kreditlərin verilməsi Fondla müvəkkil bank arasında bağlanılacaq baş sazişə uyğun olaraq tələbələrlə bağlanılmış kredit müqavilələri əsasında təhsil müəssisələrinə köçürüləcək.
5. Təhsil tələbə kreditləri sığortalanır.
6. Təhsil tələbə krediti üzrə kreditin maksimal məbləğini və kredit faizlərini Fondun Himayəçilik Şurası təsdiq edəcək.
7. Təhsil tələbə krediti üzrə müraciətlərin edilməsi, qeydiyyatı, tələbənin statusunun və hüququnun müəyyən edilməsi və digər əməliyyatlar bu məqsədlə yaradılan elektron informasiya sistemi vasitəsi ilə həyata keçiriləcək.
8. TTK-nin verilməsindən imtina edilmiş şəxsin TTK almaq üçün növbəti semestrdə (yarımildə) təkrar müraciət etmək hüququ var.
9. Borcalanda TTK-nin qaytarılması öhdəliyi TTK-nin qaytarılma dövründə, yəni güzəşt dövründən sonra yaranır.
10. TTK almış, lakin təhsilini başa çatdırmamış və təhsil müəssisəsindən xaric olunmuş borcalana münasibətdə TTK-nin qaytarılması öhdəliyi bu halların təhsil müəssisəsi tərəfindən rəsmiləşdirildiyi gündən başlanır.
11. Güzəşt dövründə borcalanın əmək və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu müəyyən edilərsə, tələbə kreditlərinin qaytarılması öhdəliyi bu fəaliyyətin başlandığı tarixdən yaranır.
12. TTK-nin qaytarılması dövründə aşağıdakı hallar baş verərsə, TTK-nin qaytarılmasına möhlət verilir və kredit müqaviləsinin müddəti həmin müddətə qədər uzadılır:
    - yuxarı təhsil səviyyəsində əyani təhsil;
    - həqiqi hərbi xidmət;
    - məhkumluq (4 ildən çox olmayaraq azadlıqdan məhrumetmə və ya

azadlığın məhdudlaşdırılması);

- ❖ işləyən borcalana münasibətdə hamiləliyə və doğuma görə və uşağının üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli sosial məzuniyyətdə olduğu müddət;
- ❖ sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq müddəti.

13. TTK borcalanın özü və ya onun əvəzinə hər hansı bir şəxs (valideyni, qohumu, işəgötürəni və s.) tərəfindən qaytarıla bilər.

*İstinad olunmuşdur: https://edu.gov.az/az/news-and-updates/16585-1*

*https://www.youtube.com/watch?v=YeaAzjy0Oh4*

*https://www.youtube.com/watch?v=ZDXCsnfrXqI*

**Tələbənin bilməli olduğu əsas anlayışlar**

**Akademik borcu olan tələbə -** fərdi tədris planında qeyd olunan fənlərin ən azı birindən müəyyən olunmuş krediti qazana bilməyən tələbədir.
**Akademik məsləhətçi (tyutor)** - ali təhsil müəssisələrində va AMEA-da tədris məsləhətçisidir.
**Akademik mobillik** – tələbənin va professor-müəllim heyətinin ölkədaxili va xarici ölkələrin ali təhsil müəssisələrində və AMEA-da müvafiq olaraq sərbəst təhsil almaq va akademik fəaliyyət göstərmək hüququdur.
**Akademik təqvim** - ali təhsil müəssisəsində tədris ili üzrə nəzərdə tutulmuş tədbirləri özündə əks etdirən sənəddir.
**Akademik transkript** – tələbənin təhsil müddətində keçdiyi fənlar üzrə topladığı kreditləri va qiymətləri (rəqəm və hərflərlə) özündə əks etdirən sənəddir.
**Aralıq qiymətləndirmə** - tədris yarmilinin 8-ci həftəsində fənn üzrə tələbənin imtahan zamanı bilik va bacarıqlarının qiymətləndirilməsidir.
**Avropa Kredit Transfer Sistemi (AKTS)** – təhsil proqramı ilə müəyyən olunmuş kompetensiyalara nail olmaq üçün tələbənin iş yükünü va tahsilalma istiqamətini müəyyənlaşdirən sistemdir. Bu sistem, həmçinin tələblərin mobilliyini təmin edir və təhsil proqramlarının dövlətlərarası müqayisəsi va tanınması prosedurlarını asanlaşdırır.
**Cari qiymətləndirmə** - fənn üzra tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsidir.
**Formal təhsil** – dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil formasıdır.
**İnformal təhsil –** özünütəhsil yolu ilə biliklərə yiyələnmənin formasıdır.
**İxtisas** - müvafiq təhsil sənədində təsbit olunan peşə, bir peşə daxilində fəaliyyət

növüdür.
**İxtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı** – ixtisasın (ixtisaslaşmanın) tədris planına va tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlarin kreditlərini və tələbələrin sayını özündə əks etdirən sənəddir.
**İxtisaslaşma** - müvafiq peşə-ixtisas təhsili istiqamətinin tərkib hissələrindən biri üzrə alınan peşə ixtisasıdır.
**İxtisasın (ixtisaslaşmanın) tədris qrafiki** - ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri üzrə bölgüsünü əks etdirən sənəddir.
**İxtisasın (ixtisaslaşmanın) tədris planı** - ali təhsilin müvafiq səviyyəsində ixtisas (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun olaraq, tədris olunan fənlərə va auditoriyadankənar məşğələlərə ayrılan saatların miqdarını müəyyən edən əsas tənzimləyici sənəddir.
**Qeyri-formal təhsil** – müxtəlif kurslarda, dərnəklərdə və fərdi məşğələlərdə əldə edilən və dövlət təhsil sənədinin verilməsi ilə müşayiət olunmayan təhsil formasıdır.
**Müvəffəqiyyətlə təhsil alan tələbə** - fərdi tədris planında qeyd olunan bütün fənlər üzrə müəyyən olunmuş kreditləri qazanan tələbədir.
**Prerekvizit fənlər** – tədrisi ilk növbədə zəruri olan fənlərdir.
**Tədris plan** - müvafiq təhsil pilləsində tədris olunan fənlərə və dərsdənkənar məşğələlərə ayrılan saatların miqdarın müəyyən edən əsas tənzimləyici sənəddir.
**Tədrisə tam cəlb olunma (full-time)** - ixtisasın təhsil proqramı ilə müəyyən olunmuş normativ təhsil müddətinə uyğun, tədris qrafiki ali təhsil müəssisəsi tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür.
**Tədrisə qismən cəlb olunma (part-time)** - ixtisasın tədris planına uyğun, hər semestrda iki fəndən az olmamaqla, tədris qrafiki tələbə tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür.
**Təhsil krediti** – fənnin məzmununa və həcminə uyğun olaraq, onun mənimsənilməsinə ayrılan vaxtın ölçü vahididir.
**Təhsil proqramı (kurrikulum)** – təhsilin hər bir pilləsi üzrə təlim nəticələri və məzmun standartların, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarının, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparilmasi sistemini özündə əks etdirən dövlat sənədidir.
**Tələbənin fərdi tədris planı** – tələbənin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən sənəddir.
**Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG)** – tələbənin təhsil proqramını mənimsəmə səviyyəsinin göstəricisidir. ÜOMG tələbənin tədris fəaliyyətini fəallaşdırmaq, özünənəzarət mexanizmini yaratmaq, tədrisdə əldə etdiyi nailiyyətlərini qiymətləndirmək məqsədi ilə tətbiq edilir.